# Müstəqilliyimizin 22 ili

(Əvvəli 5-ci səhifədə).

Böyük siyasətə bu qayıdış imperiya qüvvələri ilə mübarizənin daha da kəskinləşməsinə və Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Azərbaycan Xalq Cümhuriyyətinin baş verən hadisələr ucbatından davam etdirə bilmədiyi müstəqillik yoluna ümummilli liderimiz Heydər Əliyevin daim sədaqətli olmasını belə bir fakt da sübut edir ki, məhz bu böyük siyasi liderin uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanın üç rəngli bayrağı ilk dəfə olaraq 1991-ci il noyabrın 17-də Naxçıvan parlamentinin iclas zalında müstəqillik rəmzi kimi yüksəkliyə qaldırıldı. Eyni zamanda Azərbaycan Ali Sovetindən, o vaxtkı kommunist rejimindən tələb olundu ki, müstəqil Azərbaycanın dövlət rəmzi və atributları haqqında qərar qəbul etsin.

Bu gün dövlət müstəqilliyimizə münasibətdə siyasi tariximizin yaddaşında başqa nümunələr də qalıb. Moskvapərəst Vəzirov, Mütəllibov rejiminin xalqa, onun müstəqilliyinə zidd siyasəti, siyasi oriyentasiyası bəlli olmayan, dövlət idarəçiliyinə əsl dərəbəylik, anarxiya gətirən, idarə edə-edə öyrənmək istəyən Xalq Cəbhəsi—Müsavat cütlüyünün zərərli praktikası Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükələr yaratmışdı. Bu mənada 1991-1993-cü illəri Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, dövlət müstəqilliyinə qarşı qorxulu meyllərin, milli laqeydlik və satqınlıq təcavüzünün sınaqdan çıxarıldığı dövr kimi də səciyyələndirmək olar.

Xalqımız onun tarixi taleyində oynadığı böyük rola—ilk Azərbaycan Cumhuriyyətinin başladığı işi çətin və gərgin bir şəraitdə davam etdirdiyinə, tariximizin qaranlıq səhifələrinə obyektiv işıq saldığına, Azərbaycanı sonu görünməyən əfsanə və rəvayətlər yolu əvəzinə, gerçək siyasi mövcudluq və dövlət müstəqilliyi yoluna qaytardığına görə ümummilli liderimiz Heydər Əliyevə borcludur.

Müstəqilliyi qoruyub saxlamaq, inkişaf etdirmək onu əldə etməkdən qat-qat çətindir. Məhz ümummilli liderimizin siyasi iradəsi, dühası, uzaqgörənliyi, gərgin və yorulmaz fəaliyyəti ilə əldən getməkdə olan müstəqilliyimiz qorunub saxlanıldı, günbəgün möhkəmləndirildi, onun sarsılmazlığı, dönməzliyi və əbədiliyi təmin edildi.

**Oqtay MƏMMƏDOV.**

# Xalqımız növbəti dəfə sabitliyə və tərəqqiyə səs verdi

Müstəqil Azərbaycanımızın tarixində mühüm siyasi hadisə olan bir kampaniya-növbəti ölkə prezidenti seçkiləri uğurla başa çatdı. Azərbaycan xalqı növbəti dəfə çox böyük müdriklik göstərərək vətənimizin ictimai-siyasi sabitliyinə, sürətli inkişafa, tərəqqiyə xoş gələcəyinə səs verdi. Ölkə başçısı cənab İlham Əliyev digər namizədlərlə müqayisə edilməz dərəcədə yüksək səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Əslində son 10 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə istər ictimai-siyasi, istərsə sosial-iqtisadi sahədə əldə edilən uğurlar, aparılmış çox saylı rəy sorğuları möhtərəm Prezidentimizin növbəti dəfə xalqın çox böyük səsi ilə dövlət başçısı seçiləcəyini əvvəlcədən proqnozlaşdırmağa əsas verirdi.



Beləliklə xalqımız öz liderinin yorulmaq bilmədən apardığı, vətənə, xalqa xidmətdən ibarət olan daxili və xarici siyasətinə uyğun seçim etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin so 10 ildə öz fəaliyyəti ilə ölkədə qazandığı böyük nüfuz və hörmətə qədirbilən xalqımız öz layiqli cavabını verdi. İlham Əliyevin növbəti dəfə Prezident seçilməsi həm ölkəmizdə, həm də xaricdə yaşayan milyonlarla soydaşımızın və xalqımızın dostu olan xalqların ən böyük sevincinə səbəb oldu.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası oktyabrın 9-da axşam Prezident seçkilərinin ilkin nəticələrini açıqlayan kimi ölkəmizin paytaxtı Bakı şəhərində, digər rayon mərkəzlərində, şəhər və kəndlərdə, o cümlədən Qəbələdə bir sözlə Azərbaycanın bütün ərazisində insanlar küçə və meydanlara axışaraq öz sevinclərini bölüşürdü. Çal-çağır və musiqi sədaları böyük bayram əhval ruhiyyəsi yaradan atəşfəşanlığa qarışırdı. Qələbə şənlikləri səhərə qədər davam etdi.

Prezident seçkiləri ölkəmizin hər yerində demokratik və şəffaf şəkildə, seçicilərin böyük fəallığı ilə keçdi. Ölkə üzrə seçicilərin 3 milyon 723 min 544 nəfəri, 72,1 faizi seçkilərdə iştirak etdi. Seçkilərdə iştirak edən seçicilərin 84,59 faizi möhtərəm cənab İlham Əliyevi növbəti dəfə ölkə prezidenti görmək istədiklərini rəsmi şəkildə təsdiqlədi.

Rayonumuzda da ölkə prezidenti seçkiləri əhalinin çox böyük fəallığı ilə keçdi. Rayon üzrə qeydə alınmış 62,079 nəfər seçicidən 46,738 nəfəri, 76,2 faizi seçkilərdə iştirak etmiş, onlardan 84,6 faizi cənab İlham Əliyevə səs vermişdir.

Rayondakı bütün seçki məntəqələrində səsvermə çox yüksək səviyyədə, beynəlxalq standartlara uyğun, demokratik və şəffaf keçmişdir. Seçicilərin öz iradələrini sərbəst şəkildə ifadə etmələri üçün hər cür şərait yaradılmışdır.

Ölkəmizin hər yerində olduğu kimi Qəbələdə də seçkiləri izləyən çoxsaylı xarici və yerli müşahidəçilər seçkilərin keçirilməsi prosesini yüksək qiymətləndirmiş, heç bir qanun pozuntusu aşkar etməmişlər.

Ölkəmizdə böyük taleyüklü siyasi bir kampaniya başa çatdı. Vətənimiz Azərbaycan üçün, xalqımız üçün uğurlu olsun.

**Qüdrət SƏMƏDOV.**

## 9 oktyabr 2013-cü il Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar rayonumuzun ən yaşlı və ən gənc seçicilərinin rəyləri

**Məhərrəm Şəkərxanov:** Yaşım yüzü keçib. Yadımda qalmayan sayda seçkilərdə iştirak etmişəm. Bu il də Qəbələ şəhərindəki 5 saylı seçki məntəqəsində sübh tezdən ilk səs verən seçicilərdən biri oldum. Qeyd edim ki, bu vaxta qədər iştirak etdiyim əhalinin ən fəal iştirak etdiyi seçkilərdən birinin şahidi oldum. Ölkəmizdə sabitliyin, inkişafın və tərəqqinin təşkilatçısı olan, xalqın sevimlisinə çevrilmiş, İlham Əliyevə—Heydər Əliyev yolunun layiqli davamçısına səs verdim.

**Aygün Qəribova: Tüntül kənd sakini.** İlk dəfədir ki, seçkilərdə iştirak edirdim. Qürur hissi duyuram ki, ilk dəfə iştirak etdiyim seçkidə biz gənclərin yaxın dostu və hamisi olan möhtərəm cənab İlham Əliyevə səs verdm. Bu seçim bütün gənclərimizin ürəyindəndir. Çünki biz möhtərəm Prezidentimizlə doğma Azərbaycanımızın daha da çiçəklənməsi, qüvvətlənməsi yolunda daha böyük inamla və ilhamla irəliləyəcəyik.

**«QƏBƏLƏ».**

# Böyük Əmili kəndi seçki günü

116 saylı Qəbələ seçki dairəsi üzrə 38 saylı Böyük Əmili kənd seçki məntəqəsində Prezident seçkisi seçicilərinin siyasi fəallığı şəraitində keçdi. Kənd seçiciləri qarşıdakı 5 il ərzində taleyini etibarlı əllərə tapşırmaq üçün seçki məntəqəsinə aydın fikirlə, xoş niyyətlə gəlmişlər.

Səhər saat 8 tamamda başlanan səsvermə məntəqəsində böyük qələbəlik vardı. Hər cür texniki avadanlıqla təchiz edilmiş səsvermə məntəqəyə dəstə-dəstə seçicilər gəlirdi. Qabaqcadan lazımi hazırlıq işləri görüldüyündən hər şey qaydasında idi. Seçicilər arasında gənclər xüsusi fəallıq göstərirdi.

Məntəqənin sədri Qüdrət Əfəndiyev bildirdi ki, burada 7 nəfər gənc ilk dəfə səsvermə hüququnu qazanmışdır. Burada 693 nəfər seçicidən 10 nəfəri 70 yaşdan yuxarı olan vətəndaşlardır. Səsvermə günü məntəqəyə gələn hər bir seçici çətinlik çəkmədən və heç bir müdaxiləyə rast gəlmədən öz səslərini istədikləri namizədə verdilər. Ümumiyyətlə məntəqədə səsvermə azad, şəffaf və demokratik qaydada keçmiş, heç bir qanun pozuntusu baş verməmişdir. Yerli müşahidəçilər seçki prosesini sonadək müşahidə etmişlər. Səsvermə axşam saat 19-da uğurla başa çatdı.

Səsvermənin nəticəsi ilə maraqlandıq. Seçki məntəqəsində iştirak edən YAP Qəbələ Rayon Təşkilatından müşahidəçi Tofiq Şükürov bildirdi ki, səsvermənin nəticəsinə görə Yeni Azərbaycan Partiyasının sədri, ölkə prezidentliyinə namizəd cənab İlham Əliyev 80 faizdən çox səs toplamışdır.

**Aslan CƏLİLOV.**